**UOT 7.03**

*DOI: 10.25045/ASUCAAI.2025.68*

# SÜNİ İNTELLEKT DÖVRÜNÜN İNSANI KİMDİR?

**Fəridə Cəlilova Mahir qızı**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
farida.jalilova@admiu.edu.az

**Xülasə**

Tarixi dövrləşmə bəşər tarixinin dəyişməsini və nailiyyətlərini tənzimləmək, onları müəyyən qanunauyğunluqlara tabe etmək zərurətindən irəli gəlir. Məqalədə tarixi dövrləşdirmənin müasir rəqəmsal mərhələsi üçün təsnifat meyarları qismində iqtisadi amillər və təfəkkür tipinə müraciət olunur. Məqalədə müasir dövrdə iqtisadi güc əldə etmək məqsədilə informasiya texnologiyalarının istehsalata cəlb edilməsi məsələsi araşdırılır, onun üstünlükləri və mümkün fəsadları qeyd olunur. İnformasiyanın işlənməsinə gəldikdə, süni intellektə tam etibar etmək olmur. Zəif süni intellekt sistemləri yalnız insan imkanları çərçivəsindəki müəyyən tapşırıqları daha məhsuldar şəkildə yerinə yetirir. Güclü süni intellekt isə insan imkanlarını üstələyə bilər. Son iki əsr ərzində biz həyat və hakimiyyət iradəsi anlayışlarının tədqiqi ilə məşğul olmuşuq. İndi isə bizə intellektual hakimiyyət iradəsi anlayışı təqdim olunur. Bu baxımdan, biz postmodernizmi əvəz edən iki fərqli yozumu özündə birləşdirən müasirlik anlayışını nəzərdən keçiririk. Bunlardan biri "avtomodernizm", digəri isə "digimodernizm" ideyasıdır. Bu müasir rəqəmsal dövrdə bəşəriyyət ilkin məqsədi – intellektual güc iradəsini unudur və məlumat əldə etmək özlüyündə məqsədə çevrilir. Nəticədə, insan informasiyanı deyil, informasiya sistemləri insanı idarə etməyə başlaya bilər.

**Farida Jalilova**

## Who Is a Man of The Age of Artificial Intelligence?

**Abstract**

Historical periodization arises from the need to organize the changes and achievements of human history by subjecting them to certain patterns. In this article, economic factors and ways of thinking are used as criteria for classifying the modern digital stage in historical periodization. The article examines the issue of involving information technologies in production in order to gain economic power in the modern era, and notes its benefits and possible disadvantages. When it comes to information processing, we cannot fully trust Artificial Intelligence. Weak AI is supposed to perform only certain tasks. However, strong AI can surpass human capabilities. Over the last two centuries, we have witnessed the concepts of the will to live and the will to intellectual power, and in the postmodern era, we were presented with the idea of the will to intellectual power. In this regard, we would like to highlight the concept of modernity, which includes two different interpretations that are replacing postmodernism. One of them is the idea of 'automodernism', and the other is the idea of 'digimodernism'. And in this modern digital era, humanity forgets the primary goal – the will to

intellectual power, and the acquisition of information becomes an end in itself. As a result, instead of people controlling information, information systems may begin to control people.

**Фарида Джалилова**

## Кто такой человек эпохи искусственного интеллекта?

**Аннотация**

Историческая периодизация вытекает из необходимости упорядочить изменения и достижения человеческой истории, подчинив их определенным закономерностям. В статье экономические факторы и образ мышления используются в качестве критериев классификации современной цифровой стадии в исторической периодизации. В статье рассматривается вопрос привлечения информационных технологий в производство с целью обретения экономической мощи в современную эпоху, отмечаются его преимущества и возможные недостатки. Когда дело касается обработки информации, мы не можем полностью доверять искусственному интеллекту. При применении слабого искусственного интеллекта предполагается выполнение только определенных задач, а искусственный интеллект рассматривается как инструмент, способный генерировать человеческие навыки. Однако сильный искусственный интеллект может превзойти человеческие возможности. На протяжении последних двух столетий мы были свидетелями концепций воли к жизни и воли к интеллектуальной власти, в эпоху постмодерна же нам была представлена идея воли к власти. В этой связи мы хотели бы выделить концепцию модерна, которая включает в себя две различные интерпретации, приходящие на смену постмодернизму. Одна из них – идея «автомодернизма», а другая – идея «диджимодернизма». И в эту современную цифровую эпоху человечество забывает первичную цель – волю к интеллектуальной власти, и добывание информации становится самоцелью. Как следствие, вместо контролируемой людьми информации, информационные системы могут начать контролировать людей.

**Açar sözlər:** Süni intellekt, rəqəmsal sənaye inqilabı, postmodernizm, psevdomodernizm, avtomodernizm, dicimodernizm.

**Keywords:** Artificial Intelligence, Digital Industrial Revolution, Postmodernism, Pseudomodernism, Automodernism, Digimodernism

**Ключевые слова:** Искусственный интеллект, цифровая промышленная революция, постмодернизм, псевдомодернизм, автомодернизм, диджимодернизм.

“Bu gün” adlandırdığımız zaman kəsiyi necə dəyərləndirilməlidir, zaman oxunda o, necə təsvir olunmalıdır? “Zaman” anlayışının nisbilik nəzəriyyəsindəki müəmmalı yerini nəzərə alıb, bu kəlmə ilə ehtiyatlı davranmalıyıq. Amma dünyanın dərki prosesində, hərəkətin, yerdəyişmənin, inkişafın rolunu müəyyənləşdirmək baxımından müəyyən sıralama olmadan keçinmək mümkünsüzdür. Tarixi dövrləşmə də bəşər tarixinin dəyişikliklərini, nailiyyətlərini müəyyən qanunauyğunluğa tabe edilərək nizama salınması ehtiyacından qaynaqlanır. Dövrləşdirmə prinsiplərinə nəzər saldıqda, biz bir neçə təsnifat yanaşmasının mövcud olduğu sistemlərlə qarşılaşacağıq.

Hazırki konfrans məruzəsinə mövzu seçərkən martın əvvəlində ADMİU-nun Teatrşünaslıq kafedrasının keçirdiyi "İncəsənətdə postmodernizm dövrü və sonrası" adlı tələbə konfransının çıxışları mənim üçün təkan oldu. Həmin konfransda səslənən fikirləri dinlədikcə müasir dövrümüzün hansı "izm"lə bağlanması məsələsinin aktuallığı aşkarlandı. Axı dövrün dəyərləndirilməsi yalnız o bitdikdən sonra baş verməməlidir və əgər biz yaşadığımız dövrü necəsə adlandırmalıyıqsa, bu hansı ad olmalıdır? Əlbəttə, bununla bağlı kifayət qədər ədəbiyyat var və biz mövcud yanaşmalardan sırf konfransımızla əlaqədar olanları nəzərdən keçirəcəyik.

Sözsüz ki, əvvəlcə dövrləşdirmənin meyarlarını dəqiqləşdirməliyik. İlk ağla gələn meyar hamımızın hələ məktəbdən öyrənməyə başladığımız istehsalat vasitələri və ictimai-iqtisadi münasibətlər əsasında təsnif edilən formasiyalardır. İstehsalat sahələrinin inkişafında postindustrial adlandırılan mərhələsi texnologiyaların inkişafı nəticəsində deindustrializasiyaya gətirib çıxara bilir və bu, hazırda iqtisadi strategiyaların hazırlanması zamanı ən çox narahatlıq doğuran məqamlardandır. Yəni bir tərəfdən, dünyada mövcud istehsalat və xidmət sahələrindəki innovasiyalarla ayaqlaşmağa çalışmasan – bu isə razılaşaq ki, müasir dövrdə süni intellekt alətləri daxil olmaqla, bir sıra yüksək texnologiyalardan istifadəni nəzərdə tutur – ölkə iqtisadiyyatının rəqabətədavamlılığının zəifləməsi labüddür, digər tərəfdən isə, bu texnologiyalardan aktiv istifadə canlı işçi qüvvəsinə olan ehtiyacı azaldaraq işsizlik problemini artıracaq. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"na dair 2025-ci il 19 mart tarixli Sərəncamı ilə tanış olarkən də eyni məsələlərin vurğulanmasının şahidi oluruq. Sözügedən strategiyanın icrası nəticəsində nail olunması nəzərdə tutulan hədəflərdən birincisi ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması kimi göstərilir [Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası, 2025, s. 9], strategiyanın prioritet istiqamətləri təyin olunarkən isə gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri də açıqlanmışdır. Strategiyada ən çox vurğulanan ifadələrdən bəlkə də birincisi "məlumat" sözüdür – onun idarəolunması, emalı, mühafizəsi və s. Pol Edvards "İnfrastruktur və müasirlik: güc, zaman və ictimai-texniki sistemlər tarixində sosial təşkilatlanma" məqaləsində yazır: "İkinci Dünya Müharibəsindən sonrakı dövrün sürətlə qloballaşan bazarları yeni nəzarət problemləri ilə üzləşdi, belə ki, yükdaşımaların sürəti və səmərəliliyi hava daşımaları, intermodal daşımalar və digər infrastruktur innovasiyaları sayəsində artdı. Nəzarəti həyata keçirmək informasiya tələb edir; öz növbəsində, nəzarət altındakı sistemlərin artmaqda olan sürəti və/yaxud ölçüləri sürətli və güclü informasiya emalı texnologiyalarını tələb etməkdə idi. Yüksək keyfiyyətli informasiya emalı yalnız rahatlıq üçün olmayıb, qlobal maddi iqtisadiyyatın yüksələn sürətinin və miqyasının *sine qua non* kimi çıxış edir" [Edwards, P. N., 2003, 208]. Müəllif informasiyanın yeni dövr üçün əhəmiyyətinə xüsusi yer ayıraraq, Kastelsə istinadən vurğulayır ki, informasiya eyni anda həm xammal, həm də məhsul olur. Yəni hər bir yeni proses və ya məhsul əsasən informasiyadan ibarət olduğundan, o, dərhal yeni innovasiya dövriyyəsi üçün giriş nöqtəsinə çevrilə bilər. İnformasiya üsullu inkişaf dünyanın müxtəlif regionlarında müxtəlif formalar almaqdadır – belə ki, bu zaman maddi istehsal bir bölgədə cəmlənirsə, informasiya istehsalı başqa bölgədə paylaşılır. Edvards deyir: "Söhbət İT-ni hansısa mütərəqqi ideologiyanın mərkəzinə qoymaqdan getmir. Əvəzində, mən sadəcə etiraf etmək istərdim ki, yaxşı və ya pis, zamanın və sosial təşkilatlanmanın makro səviyyəsində sənaye kapitalizmi və onun infrastrukturlarının birgə inkişafı kifayət qədər güclü funksional məntiq nümayiş

etdirməkdədir" [Yenə orada]. İnsan həmişə funksional məntiq axtarışındadır. Amma insan haqqında danışdığımız zaman funksiallıq yalnız iqtisadi ölçü qismində qəbul olunmamalıdır. Müasir dünyada hadisələrin başvermə sürəti, köhnə estetikanın dilində desək, xalis zəka ilə praktik zəka arasında körpü yaradacaq sahələrin tədqiqinə çox dar yer qoymaqdadır. Təsadüfi deyil ki, Avropa Şurasının 2024-cü ilin sentyabrında imza üçün açıq elan etdiyi süni intellekt haqqında çərçivə konvensiyası sözügedən texnologiyaların inkişafı prosesini insan hüquqları, demokratiya və qanunun aliliyi sahəsindəki standartlara uyğun şəkildə gerçəkləşdirməyə çağırır [Daha ətraflı bax: Рамочная конвенция Совета Европы об искусственном интеллекте и правах человека, демократии и верховенстве права]. Yəni bir tərəfdən, süni intellektlə bağlı "funksionallığa" yönəlmiş strategiyalar hazırlanır, digər tərəfdənsə, bu strategiyaların tətbiqi zamanı yarana biləcək təhlükələrlə bağlı preventiv tədbirlər planı işlənilir. Belə ki, süni intellekt sistemlərinin tətbiqi zamanı iqtisadi, sosial, mədəni və siyasi aspektli bərabərsizliklərin peyda olması, bu sistemlərin repressiv məqsədlər üçün istifadə potensialı hazırki rəsmi sənədlərdə ən çox narahatlıq doğuran problemlər kimi vurğulanır. Sadalanan təhlükələr süni intellekt alətləri – yəni bu kontekstdə, hakimiyyət hərisliyinin təzahür tapacağı yeni nəzarət formaları – sayəsində əlavə güc əldə edəcək insanın davranışı, yaxud dövlətin siyasəti ilə bağlıdır. Bunlar bilavasitə hüquq sahəsinin məşğul ola biləcəyi məsələlər olduğundan, onların üzərində çox dayanmadan keçirəm digər vacib məsələyə.

Söhbət informasiya emalından getdikdə biz heç sonadək süni intellektə də etibar edə bilmirik. Yuxarıda adıçəkilən sənədlər əsasən zəif süni intellektin tətbiqi sferalarını əhatə edir. Bu zaman süni intellektdən yalnız konkret tapşırıqların yerinə yetirilməsi gözlənilir və süni intellekt insan bacarıqlarını generasiya edə bilən alət kimi nəzərdən keçirilir ki, nəticədə, insan imkanları çərçivəsində, ancaq daha məhsuldar nəticə göstərən sistemlər yaradılır. "İnsan imkanları" burada açar sözdür, yəni tətbiqi, yaxud zəif süni intellekt əsasında işləyən maşınlar insanın edə bildiyi işi ondan qat-qat yaxşı və qat-qat tez icra edə bilir deyə, iqtisadi və funksional çəkiyə malik olur. Güclü süni intellekt isə insan imkanlarını aşa bilər. Süni intellekt verilənlər əsasında yeni informasiya əldə edə və həmin informasiyanı emal edərək öyrənmə (bu isə yeni dataların sistemə əlavə olunması deməkdir) və tanış olmayan mühitlərə uyğunlaşa bilmə qabiliyyəti hesabına artıq məhdud insan şüurunun təsəvvür edə bilməyəcəyi nailiyyətlər əldə edə bilər. Əgər zəif süni intellektin tətbiqinin səbəb ola biləcəyi təhlükələr arasında sosial bərabərsizliyin artması ən böyük problem kimi götürülürdüsə, güclü süni intellektin inkişafı bəşəriyyətin sonu ilə yekunlaşa bilər. Belə olduğu halda, güclü süni intellektin inkişafına maraqlı olan insanın hərəkətverici qüvvəsi nədir? Bəzi alimlər tərəfindən təhlükəli sayılan Böyük Hadron Kollayderini yaradan səbəblə eyni olan bu bilik şövqünü şərti olaraq "Faust sindromu" adlandıra bilərik. Bəlkə də bilik naminə "İblislə sövdələşmə"yə hazır olan qorxmaz və yeni insan tipi yaranıb? O zaman, biz qayıdırıq əvvəldə qeyd etdiyimiz tarixi dövrlərin təsnifat meyarları məsələsinə. İqtisadi münasibətlər bu məruzə çərçivəsində yuxarıda qeyd etdiyimiz səbəblərdən bizi maraqlandırmadığına görə, tarixi bölgünün təfəkkür tipi kriterisinə keçmək və araşdırmamızı bu istiqamətdə qərarlaşdırmaq istərdik.

Beləliklə, son iki əsrdə biz sizinlə həyat iradəsi, hakimiyyət iradəsi konsepsiyalarının şahidi olmuşduq, indisə bizə intellektual hakimiyyət iradəsi ideyası təqdim olunur: "Postmodernizm məsələsində imperial zəka ehtirası kimi qəbul edə biləcəyimiz intellektual hakimiyyət iradəsi və ona qarşı müqavimət təzahür tapır; lakin bu iradə və ehtirasın özü tarixin gedişatından, daha doğrusu,

köhnəlmə prosesindən törəmişdir" [Хассан, И., 1987]. Postmodernizmin ölümünü elan edən saysız tədqiqatların yer aldığı müasir dövrümüzdə bizi intellektual hakimiyyət iradəsi ilə nə baş verdiyi maraqlandırır.

Alan Kirbi 2006-cı ildə işıq üzü görən "Postmodernizmin ölümü və sonrası" essesində yeni "izm" təklifi ilə çıxış edir: "Postmodernizmə görə, müasir mədəniyyət fərdi gücsüz hala salan, həmçinin gerçəklik və gerçək olanlarla bağlı məsələlərin problemləşdirildiyi tamaşadır. …Onun varisi isə – mən onu psevdomodernizm adlandıracağam – fərdin fəaliyyətini mədəni məhsulun zəruri mövcudluq şərtinə çevirdi" [Кирби, А., 2006]. Kirbiyə görə, postmodernizmi əvəzləyən yalançı modernizmin başlıca xüsusiyyəti istehlakçı fərdin məhsulun istehsal prosesinə müdaxiləsindədir. Burada məhsulun forma və məzmun göstəriciləri də əsas götürülmür, əsas olan, istehsalat prosesinə cəlb olunmadır ki, bu da, öz növbəsində, ortaya gerçəklik sayılanlarla bağlı bir sıra suallar qoyur. Müasir insan üçün gerçəkliyin dərki dəyişib. Kirbi deyir ki, psevdomodernizmdə İnternet üstünlük təşkil edir və onu müəyyənləşdirir. Bununla mübahisə etmək mənasızdır. Həqiqətən, İnternet qısa bir zaman ərzində bizə insanın əvvəlki dövrlərdə ala bilmədiyi qədər məlumat təqdim edir, nəticədə, insan həmin məlumatla nə edəcəyini bilmir və qarşımıza informasiyaya tamamilə yeni münasibət sərgiləyən insan çıxır. Kirbiyə görə, psevdomodernist mətnin həyatı çox qısadır; mətnşəkilli mesajların çoxu əvvəlki dövrlərdə insanların bir-birinə yazdıqları ilə müqayisədə məzmunsuz və boş olur [Кирби, А., 2006].

Beləliklə, müasir insan informasiya texnologiyaları dövrünün insanıdır və məhz bu insan tipi artıq bəzi ümumiləşdirmələrə yol verəcək xüsusiyyətlərə malikdir. Bu baxımdan, biz postmodernizmi əvəzləyəcək iki fərqli yozumu özündə ehtiva edən müasirlik konsepsiyasını qeyd etmək istəyirik. Bunlardan biri, Robert Semuelsin irəli sürdüyü "Postmoderndən sonra avtomodernizm", digəri isə, yuxarıda haqqında danışdığımız Alan Kirbinin "Dicimodenizm" ideyalarıdır: "Avtomodernizm, (…) dicimodernizm layihəsi ilə birlikdə, yeni texnologiyalar sayəsində sosial münasibətlərin quruluşunun necə yenidən formalaşdırılmasına diqqət yetirir" [Мазоренко, Д. А., 2019, s. 205]. Hər iki müəllif yeni texnologiyalar dövründə kontentin ərsəyə gəlməsi məsələsinə toxunur. "Postmodernizmdən sonra avtomodernlik: Mədəniyyət, texnologiya və təhsildə avtonomiya və avtomatlaşdırma" məqaləsində Semuels göstərir ki, media dövrünün yazı prosesi "təkcə iş və oyun arasındakı köhnə mədəni ziddiyyətlərin parçalanmasını göstərmir, həm də özü ilə digərləri arasındakı strukturvari konfliktə meydan oxuyur" [Samuels, R., 2008, s. 220]. Avtomodernizm dedikdə nəyi nəzərdə tutduğunu aydınlaşdırmaq üçün Semuels XXI əsrin əvvəllərində Qərb dünyasında rəqəmsal gənclər tərəfindən geniş istifadə olunan fərdi kompüter, mobil telefon, iPod, uzaqdan idarə olunan televizor və kompüter oyunlarını sadalayaraq qeyd edir ki, bu texnoloji obyektlər yüksəksəviyyəli mexaniki avtomatlaşdırma ilə yüksək şəxsi avtonomiya hissini birləşdirmək baxımından ümumi məqamlara malikdirlər. Semuels deyir: "Əslində, avtonomiya və avtomatlaşdırmanın bu gözlənilməz və yenilikçi birləşməsi ümumən müasir həyatın və xüsusilə də rəqəmsal gənclərin müəyyən ziddiyyətləri kimi oxuna bilər. Əhəmiyyətlidir ki, avtomatlaşdırma ənənəvi olaraq şəxsi nəzarətin itirilməsini ifadə etsə də, avtonomiya fərdi azadlığın artması ilə müəyyən edilir; lakin avtomodernlik bu iki əks qüvvəni daima gözlənilməz şəkildə birləşdirir" [Samuels, R., 2008, s. 228]. Məsələyə iki fərqli rakursdan baxsalar da, Kirbinin "psevdomodernizm" termininə qane olmayıb, yeni "rəqəmsal modernizm" konsepsiyasını irəli sürdüyü "Dicimodernizm. Yeni texnologiyaların postmoderni dağıtmasına və

mədəniyyətimizi yenidən konfiqurasiya etməsinə dair" kitabında da, başqa terminologiyadan istifadə etməklə, müəllif özünəməxsus şəkildə reallaşan avtonomlaşma mövzusuna toxunur: "Dicimodern yeni ixtiralar vasitəsilə insana "şəxsi kainat" yaratmaq imkanı verir və belə bir istək yarandığı təqdirdə, bu kainata heç kimi buraxmamaq, ümumiyyətlə bütün ünsiyyəti dayandırmaq mümkündür" [Kirby, A., 2009, 230]. Dicimodernizmin termin kimi yaranmasından danışarkən, qeyd olunmalıdır ki, visual başlanğıcdan əlavə, mətn yazılan zaman istifadə olunan mətnyığma texnologiyası da burada önəmlidir: "Kirbi üçün "digimodernism" təkcə "rəqəmsal" mənasında "digital" deyil, həm də "barmaqlar" mənasında "digits" deməkdir" [Сафронов, Э. Е., 182]. Beləliklə, insan yeni texnologiyalardan asılı vəziyyətə düşür, bu da, öz növbəsində, konsyumerizmi normaya çevirir. Kirbiyə görə, "istehlakçılığa düşmən olan hər şey ruhi xəstəliyə çevrilir" [Kirby, A., 2009, 233]. Əlbəttə, Kirbi burada klinik xəstəlikləri nəzərdə tutmur. Amma mədəni dövrləşdirmə ilə bağlı aşağıdakı analogiya tədqiqatçılar arasında yer almaqdadır: "Modernist insanın psixoloji durumunun mahiyyəti nevroz, postmodern insanınki şizofreniya idisə, dicimodern dövründə bu, autizm sayılır. Beləliklə, autizm dicimodernizmin tərkib hissəsinə və hətta təbiətinə çevrilir. Sonuncu cəmiyyətdən könüllü təcrid olunmağa haqq qazandırır, sosiopatiya isə normaya çevrilərək mədəniyyətdə təmsil olunmaqla qanuniləşir" [Павлов, А. В., 208]. Daha konkret şəkildə desək, sosial varlıq olan insanın gerçək insana ehtiyacı qalmır, virtuallıq ona bəs edir.

Sözsüz ki, nəzərdən keçirilən konsepsiyaların məsələyə yanaşmasında fərqlər var və biz məruzəmiz çərçivəsində bu fərqləri nəzərdən keçirməyi lazım bilmədik. Amma rəqəmsallaşmanın bizi maraqlandıran tərəfləri adıçəkilən terminlərdən heç birində tam əhatə olunmur, bunula belə, rəqəmsallaşma ilə süni intellektin sirayəti arasındakı fərqi vurğulamaq istərdik. Əlbəttə, burada aşkar izlənə biləcək rabitə mövcuddur və müasir insanın təfəkkür şablonlarının formalaşması prosesini üçüncü – rəqəmsal sənaye inqilabı ilə əlaqələndirmək tələb olunur. Digər tərəfdənsə, biz üçüncü sənaye inqilabının nəticələrini ümumiləşdirməyə imkan tapmamış artıq bəzi dairələrdə dördüncü sənaye inqilabından danışılır. Yeni paradiqma çərçivəsində rəqəmsallaşma və süni intellektin həyatımıza müdaxiləsi tamamilə yeni müəllif konsepsiyası yaratdı. Bu konfransda bütün səsləndirdiklərim, ilk olaraq, yeni dövr kontentinin yaradıcısını, yeni müəllif tipinin təhlilini nəzərdə tuturdusa da, təəssüf ki, giriş planlaşdırılandan daha böyük çıxdı. Ona görə, mən sadəcə fikirlərimi yekunlaşdırmaq istərdim.

**Nəticə**

Modernizm – Postmodernizm – Dicimodernizm (şərti olaraq) ardıcıllığındakı təfəkkür dəyişikliyini izləməli olsaq, müvafiq olaraq, bu cür sıralama alınar: sanki yalnız seçilmişlərin anlaya biləcəyi dilin yaradılması – intellektual hakimiyyət şövqü – indi informasiyanı ver, sabah bunun nə demək olduğunu fikirləşərəm. Bizi narahat edən məqamlardan birincisi həmin sabahın yetişməyə bilməsidir. İnformasiya üstünlüyü və istehsalat prosesinin inkişafı yarışmasında dünya dəli olub və müasir insan bilik sahəsinə keçməyə macal tapmayan informasiya burulğanında var-gəl edir. Dicimodernist insan artıq informasiyanı nə üçün istədiyini, ilkin məqsədi, məqamlarla hətta real hakimiyyət şövqünü də unutmaqdadır. Bəlkə elə bu səbəbdəndir ki, Yeri xilas etməyə çalışmaqdan çox müasir insanı Marsın fəthi maraqlandırır: "Dağılsın planet, biz başqa planetlərə köçərik"! Bu baxımdan, biz Liotarın postmodernizm üçün səciyyəvi cəhət kimi metanarrativlərin yox olması fikri ilə ikiəlli razıyıq və hazırki dövdə bu hal özünü daha aşkar şəkildə doğruldur. Yəni müasir insanın

metanarrativlərlə məşğul olmağa vaxtı belə yoxdur. Qabaq dünyanın sonu dəhşət doğururdusa, indi bunu kütləvi şəkildə rahat qarşılayaraq hüdudsuz dünyada – məlumatlar bazasında yox olmağı kainat üçün problem kimi görmürük.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"na dair 2025-ci il 19 mart tarixli Sərəncamı.
2. Edwards, P. N. (2003). Infrastructure and Modernity: Force, Time, and Social Organization in the History of Sociotechnical Systems // *Modernity and Technology*. – Cambridge, MA: MIT Press, 2003. – Pp. 185-226.
3. Kirby, A. (2009). *Digimodernism. How New Technologies Dismantle the Postmodern and Reconfigure Our Culture*. New York, London: Continuum.
4. Samuels, R. Auto-Modernity after Postmodernism: Autonomy and Automation in Culture, Technology, and Education. *Digital Youth, Innovation, and the Unexpected.* Edited by Tara McPherson. The John D. and Catherine T. MacArthur Foundation Series on Digital Media and Learning. Cambridge, MA: The MIT Press, 2008. – Pp. 219-240. doi: 10.1162/dmal.9780262633598.219
5. Кирби, А. *Смерть постмодернизма и то, что после*. / Перевод: Станислав Онасенко. Metamodern – Журнал о метамодернизме. URL: https://metamodernizm.ru/the-death-of-postmodernism/#:~:text (Müraciət tarixi: 25.03.2025).
6. Мазоренко, Д. А. Автомодернизм после постмодерна. Как выглядит «социальное» в Цифровую эпоху? (2019). // *Галактика медиа: журнал медиа исследований.* 2019. – № 2. – С. 202-224
7. Павлов, А. В. Образы современности в XXI веке: диджимодернизм (Рецензия на книгу Алана Кирби). (2018). // *Философия. Журнал Высшей школы экономики*. – 2018. – Т. II, № 2. – С. 197-212.
8. Сафронов, Э. Е. Что будет вместо постмодерна? Диджимодернизм как культурная доминанта. (2019). // *Галактика медиа: журнал медиа исследований.* 2019. – № 1. – С. 178-195
9. Рамочная конвенция Совета Европы об искусственном интеллекте и правах человека, демократии и верховенстве права. Серия договоров Совета Европы № 225. – Вильнюс, 5.IX.2024. URL: https://www.coe.int/ru/web/conventions/full-list?module=treaty-detail&treatynum=225 (Müraciət tarixi: 25.03.2025).
10. Хассан, Ихаб. *К концепции постмодернизма* / из «Постмодернистского поворота» (1987). Культуролог. URL: https://culturolog.ru/content/view/2765/ (Müraciət tarixi: 25.03.2025).